Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2021, **s. 101-104**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2021, **с. 101-104**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2021, **pp. 101-104**

UOT 372.878+78.01

A.M.Məmmədəliyeva
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: aytac.memmedaliyeva@mail. ru

MUSİQİ TƏDRİSİ PROSESİNDƏ ESTETİK TƏRBİYƏNİN FORMALAŞMASI

Açar sözlər: *estetik tərbiyə, musiqi, yaradıcılıq, dünyagörüşü*

Musiqi estetik tərbiyəsi şagirdləri hərtərəfli inkişaf etdirərək, onlara yaradıcılıq, dünyagörüşü, humanizm kimi keyfiyyətlər aşılayır. Bütün bu keyfiyyətlərin formalaşması musiqi tədrisi prosesində həyata keçirilir.

А.М.Мамедалиева

ФОРМИРОВАНИЕ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ МУЗЫКЕ

Ключевые слова: *эстетическое воспитание, музыка, творческий подход, мировоззрение*

Эстетическое воспитание музыки всесторонне развивает учащихся, наделяет их творческими способностями, прививает такие качества, как мировоззрение, гуманизм. Формирование всех этих качеств осуществляется в процессе обучения музыке.

A.M.Mamedaliyeva

FORMATION OF AESTHETIC EDUCATION IN THE PROCESS OF MUSIC TEACHING

Key words: *aesthetic education, music, creativity, worldview*

Aesthetic education of music develops students comprehensively, giving them creativity, instills qualities such as worldview, humanism. The formation of all these qualities is carried out in the process of teaching music.

Tərbiyə geniş məfhumdur və mahiyyət etibarilə xalq anlayışına yaxındır. Belə ki, bəsləyib böyütmək, öyrədib yetişdirmək xalq anlayışının əsasını təşkil edir, bu da o deməkdir ki, davranış və mədəni keyfiyyətlərin insanlara məqsədyönlü, planlı təsir prosesi – tərbiyədir. Tərbiyə məsələləri hər zaman dünya, eləcə də Şərqin görkəmli alimlərinin əsərlərində öz əksini tapmışdır. Bu alimlər içərisində əsas yeri Avropada "Avisenna" kimi tanınmış Əbu Əli İbn Sina (X-XI)tutur. Onun ömür və yaradıcılıq yolunun tədqiqatçılarından olan U.Kərimov qeyd edir ki: "İbn Sinanın əsərləri orta əsr Şərqində elmi inkişafın ən yüksək mərhələsini təmsil edir". İbn Sina həm də musiqi-nəzəriyyə problemlərinin tədqiqatçısı kimi də tanınmışdır. Əsərlərində uşaqların ruhi və fiziki tərbiyəsi haqqında bir sıra elmi müddəalar irəli sürmüşdür. Qeyd edirdi ki: "Musiqi cəmiyyətə təsir göstərən bir dövlət işidir".

Biz bilirik ki, bütün dünya estetik fikrində ümumqəbul olunmuş bir haldır ki, musiqi insanları tərbiyələndirmək, öyrətmək və kamilləşdirməklə bərabər həm də onlara estetik tərbiyə aşılayır. Estetik tərbiyə nəzəri-metodoloji əsas kimi "estetika" elminə istinad edir. Estetika gözəllik haqqında elmdir. Gözəllik mütənasiblik, onun forma və məzmun vəhdəti, ahəngdarlıqdır. Gözəlliyin başlıca mənbələrini təbiət, cəmiyyət, ədəbiyyat, incəsənət və insan gözəlliyi təşkil edir. İnsanın gözəlliyi zahiri və daxili gözəlliyin vəhdətidir. Musiqidə estetik başlanğıc onun etik cəhətindən ayrılmazdır. Hadisələri estetik baxımdan dəyərləndirərkən(həm məzmun, həm forma baxımından) mütləq şəkildə mənəvi cəhətlərə də toxunulur. Bu tamamilə qanunauyğundur. Belə ki, həyatın dolğunluğu sadəcə onun gözəlliyində deyil, həm də mənəvi məğzində ifadə olunur. Musiqi tədrisi prosesində estetik tərbiyə məsələsi ön planda durur. Çünki elə musiqi sənətinin bədii təsiri onun dərin mənəvi, tərbiyəvi əhəmiyyətindədir. Görkəmli rus musiqişünası B.Asafyev belə hesab edir ki, məktəbdə musiqini həmin dövrün tendensiya və ölçülərinə uyğun olaraq tədris etmək lazımdır. Musiqi dərsləri şagirdlərin estetik tərbiyəsində əsas tədris fənlərindən biri hesab olunur. Çünki musiqi dərslərində tədris olunan hər bir mövzu şagirdlərin daxili aləmini zənginləşdirir, onlarda yüksək əhval-ruhiyyə yaradır, qavrayışlarını möhkəmləndirir.

Musiqi hisslərlə bağlı olub, insanın emosional vəziyyətinə təsir edir. Bir çox pedaqoqlar musiqinin əqli tərbiyədə mühüm rol oynadığını qeyd edirlər. V.A.Suxomlinski qeyd edir ki:"Mükəmməl əqli inkişaf üçün, musiqi tərbiyəsi şərtdir. Digər tərəfdən "gimnastika" bədəni dikəltdiyi kimi, "musiqi" də insan ruhunu dikəldir". Musiqi dərslərində aşağı sinif şagirdlərinə sadə mahnılar,

yuxarı siniflərdə isə səs həcmi geniş mahnılar öyrədilir. Musiqi müəllimi yüksək intellekt sahibi olmalıdır ki, öz dərsini ədəbiyyat, tarix, coğrafiya fənləri ilə də əlaqələndirə bilsin, musiqinin gücü ilə uşaqlarda vətənpərvərlik hisslərini artırsın, onlarda xeyirxah duyğular tərbiyə etsin.

Məktəblilərin musiqi dünyagörüşünün genişlənməsində musiqi dinləməsi böyük əhəmiyyətə malikdir. Bu uşaqların musiqi seçiciliyində və dinlənilmiş əsərin yenidən səslənərkən onu tanımasında özünü göstərir. Müxtəlif xarakterli mahnı və rəqs musiqilərini dinləyən şagirdlərdə tədricən musiqi zövqü formalaşmağa başlayır. Şagirdlərin musiqi bacarıqlarını inkişaf etdirməklə, nəğmə və musiqiyə emosional hiss oyatmaqla, onlarda musiqiyə yaradıcı münasibət tərbiyə etmək mümkündür. Bu məqsədlə lap birinci sinifdən başlayaraq musiqi sənətinin emosional məzmunu və musiqi ifadə vasitələri arasında əlaqə yaratmaq nəzərdə tutulur. Bunun üçün dinamika, registr, melodiya, ritm, musiqi janrları və quruluşları, səslərin və musiqi alətlərinin, xor və orkestrin tembri haqqında məlumatlara yiyələnməyin əhəmiyyəti böyükdür. Məktəblilərə mahnı öyrədilərkən onun mətni və müəllifi haqqında söhbətlər aparmaq və dərsi mümkün qədər əyaniləşdirmək lazımdır. Dahi bəstəkar Ü.Hacıbəyli şagirdlərin estetik tərbiyəsinin formalaşmasında xalq musiqisinin xüsusi rolunu qeyd edirdi. Bununla bərabər Ü. Hacıbəyli şagirdləri dünya musiqi klassiklərinin əsərlərləri ilə tanış etməyi də məqsədə uyğun hesab edirdi və qeyd edirdi ki: "Əks halda Azərbaycan xalqı mədəni xalqlar səviyyəsinə qalxa bilməz". Şagirdlərin estetik tərbiyəsi məsələsində məktəblərin qarşısında duran vəzifə haqqında Ü.Hacıbəyli yazırdı: "Məktəbin əsas məqsədi azərbaycanlılara musiqi sənətini öyrətməklə onlar üçün yeni sənət açmaq və gizli qalan məharətlərini nümayiş etdirməklə bəşəriyyətə xidmət göstərməkdir. Şərq musiqisini məktəb vasitəsilə tərəqqi etdirib, Qərb musiqisinin bugün işğal etməkdə olduğu mərtəbələrə qədər irəlilətməkdir". Estetik dünyagörüşü uşaqları digər fənləri də mənimsəməkdə kömək edir. Nəticədə:

1. Uşaqlar digər fənlərin estetik mahiyyətini daha da yaxşı dərk edirlər;

2. Dünya musiqi mədəniyyətinin klassik nümunələrini, iri həcmli əsərləri asanlıqla mənimsəyirlər;

3. Yaradıcılıq dərnəklərinə könüllü şəkildə üzv olurlar;

4. Şagirdlərdə gözəlliyi duymaq, qavrayış qabiliyyəti formalaşır;

Bütün bunlar şagirdlərdə estetik tərbiyənin inkişafına hərtərəfli şəkildə

kömək edir.

Ədəbiyyat

1. Hacıbəyov Ü. Azərbaycan musiqi həyatına bir nəzər. Əsərləri, II c., Bakı-1965
2. Qarayev Q. Əməyin və ömrün bəzəyi, "Ədəbiyyat və incəsənət", 1979, 19 oktyabr
3. Əbu Əli İbn Sina. "Kanon vraçebnoy nauki", Taşkent-1994.
4. Rəcəbov O. "Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası", Bakı-2010
5. Qədimova J. "Musiqinin tədrisi metodikası" , Bakı-2007
6. Məmmədova İ. "Musiqi pedaqogikası", Bakı-2009

Məqalənin redaksiyaya daxil olma tarixi: 15.06.2021
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.07.2021
Məqalənin çapa qəbul olunma tarixi: 08.10.2021
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.